**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

# F Ə R M A N I

## “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1134-VQD nömrəli Qanununun tətbiqi və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1134-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa

uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 168; 2009, № 8, maddə 630) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 4-cü hissəsində, 9-cu maddəsinin yeddinci hissəsində, 17-ci maddəsinin 4-cü hissəsinin ikinci bəndində, 29-cu maddəsinin 2-ci hissəsinin ikinci bəndində, 32-ci maddəsinin 5-ci hissəsinin birinci cümləsində, 37-ci maddəsinin 3-cü hissəsinin birinci bəndində, 41-ci maddəsinin 3-cü hissəsinin birinci bəndində, ikinci bəndinin birinci və ikinci cümlələrində, 43-cü maddəsinin 1-ci hissəsinin 4-cü bəndində (ikinci halda) və 3-cü hissəsində, 44-cü maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 8-ci maddəsinin 5-ci hissəsində, 17-ci maddəsinin 3-cü hissəsinin ikinci bəndində, 27-ci maddəsinin 2-ci hissəsində, 32-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində, 40-cı maddəsinin ikinci hissəsində, 43-cü maddəsinin 1-ci hissəsinin 4-cü bəndində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 8-ci maddəsinin 4-cü hissəsində, 9-cu maddəsinin yeddinci hissəsində, 17-ci maddəsinin 4-cü hissəsinin ikinci bəndində, 29-cu maddəsinin 2-ci hissəsinin ikinci bəndində, 32-ci maddəsinin 5-ci hissəsinin birinci cümləsində, 37-ci maddəsinin 3-cü hissəsinin birinci bəndində, 41-ci maddəsinin 3-cü hissəsinin birinci bəndində, ikinci bəndinin birinci və ikinci cümlələrində, 43-cü maddəsinin 1-ci hissəsinin 4-cü bəndində və 3-cü hissəsində, 44-cü maddəsinin 1-ci hissəsində qurum dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.".

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2018-ci il

№ 121